# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ
# VƏ
# İTALİYA RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ
# ARASINDA
# 2016-2018-CI İLLƏR ÜÇÜN SƏHİYYƏ VƏ TİBB ELMLƏRİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ FƏALIYYƏT PLANI

Bundan sonra "Tərəflər" adlandırılacaq İtaliya Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 11 noyabr 2010-cü ildə Romada imzalanmış və 2011-ci ilin noyabrında qüvvəyə minmiş İtaliya Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumunun 2-ci və 3-cü bəndlərinə əsasən,

səhiyyə və tibb elmləri sahəsində səmərəli əməkdaşlığı inkişaf etdirmək üçün, ortaq maraq doğuran məsələlər üzrə informasiya, mütəxəssislərin və ekspertlərin mübadiləsi vasitəsilə bərabərlik, qarşılıqlı əməkdaşlıq və qarşılıqlı fayda prinsiplərinə əsaslanan əməkdaşlığı təşviq edəcək.

Tərəflər qarşılıqlı maraq doğuran sağlamlıq mövzularında konfrans və seminarlarda birgə iştirakın təbliğində və eyni zamanda öz ölkələrində tibb mərkəzləri arasında əməkdaşlığın inkişaf etdirilməsi barədə razılığa gəliblər.

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlığı inkişaf etdirəcək və dəstəkləyəcəkdir:

- yoluxucu və qeyri-yoluxucu xəstəliklər, xüsusilə diabet, talassemiyanın qarşısının alınması və digər milli prioritet proqramlar;
- ümumi, döş qəfəsi və uşaq cərrahiyyəsi, neonatologiya, pediatriya, ginekologiya, otorinolarinqologiya, şüa diaqnostikası, anesteziologiya və intensiv terapiya və endokrinologiya kimi ixtisaslaşdırılmış sahələr üzrə təlim;
- kliniki təbabət sahəsində ikitərəfli birgə tədqiqatların aparılmasına dəstək göstərilməsi;
- xroniki qeyri-yoluxucu xəstəliklər üçün qidalanma siyasəti.

Bu sahələrin siyahısı, sadəcə, bir nümunədir və qarşılıqlı razılıq əsasında digər sahələrdə əməkdaşlığı istisna etmir.

Tərəflər ən müasir diaqnostik və terapevtik üsullar haqqında bilik mübadiləsi məqsədi ilə müxtəlif ixtisaslar üzrə tibb və qeyri-tibb mütəxəssislərinin mübadiləsini təşviq edəcək.

Müvafiq klinik fəaliyyət tərəfdaş ölkədə tibbi və qeyri-tibbi ixtisaslaşmış səhiyyə peşə təcrübəsini tənzimləyən qanunlar və qaydalara uyğun olaraq həyata keçiriləcək.

Hər iki Tərəf razılaşır ki, Fəaliyyət Planı üzrə həyata keçiriləcək bütün layihələr ölkələrin müvafiq illik büdcələri çərçivəsində və ölkələrdə qüvvədə olan normativ aktlara və qanunvericiliyə, həmçinin qarşılıqlı surətdə beynəlxalq öhdəliklərə və İtaliya tərəfi üçün onun Avropa İttifaqına üzv olmasından irəli gələn öhdəliklərə uyğun olaraq həyata keçiriləcək.

Fəaliyyət Planının həyata keçirilməsi və ya tətbiqi zamanı Tərəflər arasında hər hansı mübahisə olduqda, mövcud qanunvericiliyə uyğun olaraq, hər iki Tərəfin birbaşa razılığı ilə həll olunacaq.

Bu əməkdaşlıq üzrə Fəaliyyət Planı imzalandığı gündən qüvvəyə minir və üç (3) il müddətində qüvvədə qalacaq. Hər bir Tərəf bu razılaşmadan vaxtından əvvəl imtina etmək istədikdə, 90 gün ərzində digər Tərəfə yazılı formada bildiriş verməlidir.

Milan şəhərində 27 oktyabr 2015-ci il tarixində hər biri ingilis, italyan və Azərbaycan dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Tərcümə fərqləri olduğu halda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

İTALİYA RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ ÜÇÜN

SƏHİYYƏ NAZİRİ
Beatrice Lorenzin

AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ ÜÇÜN

SƏHİYYƏ NAZİRİ
Oqtay Şirəliyev